Tarix və onun problemləri, №1 2010

YEGANƏ MƏMMƏDOVA
*GDU-nun müəllimi*

# XVI-XVII ƏSRLƏRDƏ AZƏRBAYCANLA HİNDİSTAN ARASINDA İQTİSADİ-TİCARİ ƏLAQƏLƏRƏ DAİR

XVI-XVII əsrlərdə Azərbaycan bir çox qərb və şərq ölkəsilə iqtisadi-ticari əlaqələr saxlayırdı ki, onlardan biri də bəhs olunan dövrdə dünya bazarına olduqca böyük miqdarda və çeşiddə məhsul çıxardan Hindistan idi. Azərbaycan özünün mühüm strateji-coğrafi mövqeyi sayəsində tranzit ticarətdə fəal surətdə iştirak edirdi və Hindistan da öz məhsullarının demək olar ki, böyük bir qismini məhz vətənimiz vasitəsilə dünya bazarına çıxardırdı. Azərbaycanda məskən salan və burada öz mövqelərini möhkəmlədən hind tacirləri Azərbaycanla qonşu ölkələrlə də ticarət əlaqələrini genişləndirir və fəal şəkildə tranzit ticarətlə məşğul olurdular.

XVI-XVII yüzilliklərdə Hindistanla Azərbaycan arasında tranzit ticarətindən başqa, sıx ticarət əlaqələri mövcud olmuşdur. Yəni Hindistan bəhs olunan dövrdə bilavasitə Azərbaycanda satılmaq üçün bir sıra məhsullar ixrac edirdi. Eləcə də Azərbaycandan bir çox məhsullar Hindistana ixrac olunurdu.

XVI yüzillikdə Azərbaycanın dünya bazarına çıxartdığı ən əsas məhsullardan birini xam ipək təşkil edirdi (51, 8-9). Avropa dövlətlərilə bərabər Hindistan da Azərbaycanın istehsal etdiyi xam ipəyin əsas alıcılarından olmuşdur. Xam ipək Avropaya olduğu kimi, Hindistana da ixrac edilirdi. Xam ipək ticarəti yalnız Qərbi Avropa tacirlərini deyil, həm də hind tacirlərini də maraqlandırırdı. Onlar da beynəlxalq əhəmiyyət daşıyan xam ipək ticarətindən kənarda qalmırdılar. İpək ticarətində hind tacirləri də əhəmiyyətli dərəcədə iştirak edirdilər. Bakı şəhərində bu dövrdə böyük kapitala malik olan hind tacirlərinin koloniyaları mövcud idi. Limanın yaxınlığında onların yaşadıqları öz karvansaraları da vardı. Hind tacirləri Azərbaycana gələrkən əsas etibarilə ticarət koloniyaları yerləşən Bakıda və Şamaxıda məskən salırdılar. Yerli tacirlərlə birlikdə hind tacirləri də Bakı limanı vasitəsilə Həştərxana ildə 400 taya qədər (hər biri 25 batman olmaqla) xam ipək ixrac edirdilər (41, 254-255).

Xam ipəkdən əlavə XVI yüzillikdə Azərbaycandan Hindistana bir çox məhsullar ixrac edilirdi. Həmin məhsulların içərisində ağ və qara neft, duz, Abşeronda becərilən zəfəran xüsusi yer tuturdu. XVII yüzilliyin ortalarında Azərbaycanda olmuş məşhur türk səyyahı Övliya Çələbi Abşerondan çıxarılan neftin müxtəlif ölkələrə, o cümlədən də, Hindistana ixrac edildiyini yazırdı (14, 341).

Orta əsrlərdə Hindistana ixrac olunan malların içərisində atlar xüsusi yer tuturdu. Qeyd etmək lazımdır ki, atlara Hindistanda böyük ehtiyac duyulurdu. XVII yüzilliyin ikinci yarısında uzun müddət Hindistanda yaşamış fransız səyyahı F.Bernye bununla bağlı yazırdı: «Hindistanda hətta çox böyük kəmiyyətdə ata tələbat vardır; məlumdur ki, Orta Asiyadan ildə 25 min başdan çox at gətirilir; həmçinin Qəndəhar vasitəsilə İrandan onları kifayət qədər gətirirlər; müəyyən qədər də Efiopiyadan, Ərəbistandan və İrandan dəniz vasitəsilə – Məkkə, Bəsrə və Bəndər-Abbas limanlarından gətirilir» (4, 184).

Hələ qədim dövrlərdən özünün qiymətli at cinsləri ilə məşhur olan Azərbaycanda atlar yetişdirilirdi. XVII yüzillikdə Səfəvilər dövlətində olmuş fransız səyyahı Şarden Azərbaycanı imperiyanın ən yaxşı at cinslərinin yetişdirildiyi vilayətlərindən biri kimi təqdim etmişdir (12, cild IV, 109). Xarici ölkələrə atların və qatırların ixracatı qadağan olunmasına və yalnız dövlətin razılığı ilə icazə verilməsinə baxmayaraq, Şarden və Ta-

vernyenin verdiyi məlumatlara əsasən at, qatır ticarətinin böyük olduğunu görmək olar. Atların və qatırların ixrac olunduqları ölkələrin içərisində Hindistan da əhəmiyyətli yer tuturdu (12, cild IV, 106; 13, 603).

Çox güman ki, Səfəvi şahlarının hind hökmdarlarına göndərdikləri hədiyyələrin içərisində hökmən təmizqanlı, qaçağan atların olması da məhz Hindistanda atlara olan böyük tələbatla bağlı olmuşdur. Həmçinin hind hökmdarları da Səfəvilər dövlətinə məxsusi at almaq məqsədilə öz nümayəndəliklərini göndərirdilər. Buna misal olaraq, XVII yüzilliyin 30-cu illərində Moğol imperatoru Şah Cahan tərəfindən Səfəvilər dövlətinə göndərilmiş Mir Humayın başçılıq etdiyi nümayəndəliyi göstərmək olar (10, 88).

Son orta əsrlər dövründə Azərbaycanın ixracatında heyvandarlıq məhsulları mühüm yer tuturdu. Belə ki, XVII yüzillikdə Azərbaycanda olmuş avropalı səyyahlar heyvandarlığın kənd əhalisinin əsas məşğuliyyəti və qazanc mənbəyi olduğunu qeyd etmişlər. Məsələn, Yan Streys heyvandarlıq məhsulları ticarətinin geniş inkişaf etdiyini və tacirlərə, mal-qara sahiblərinə böyük qazanc gətirdiyini bildirirdi (15, 125). Bununla əlaqədar olaraq, bu zaman Azərbaycanın xarici bazarlarda əldə etdiyi gəlirin əsas mənbələrindən birini məhz mal-qara satışı təşkil etmişdir. Böyük miqdarda dəvə, at, qatır və qoyun satılmaq üçün xarici bazarlara çıxardılırdı ki, bunlarında içərisində Hindistan da mühüm yer tuturdu. At və qatırların böyük əksəriyyəti isə Hindistana ixrac olunurdu (5, 79).

Azərbaycandan Hindistana ixrac edilən malların içərisində yerli dabbaqların at, eşşək və qatır gönündən hazırladıqları şaqren növlü dərilər də vardı. Azərbaycanın bir çox şəhərlərində, xüsusən də, Təbrizdə keçi dərisindən yüksək keyfiyyətli, cürbəcür rəngli şaqrenlər hazırlanırdı (9, 126-127). Avropalı səyyahlar Səfəvilər dövlətinin hüdudlarında hazırlanan qiymətli dərilərin (şaqren və safyan) digər ölkələrə, o cümlədən də, Hindistana ixrac olunduğunu qeyd edirlər (12, cild III, 113; 13, 67). Holland tacirləri Azərbaycanda, eləcə də, İranda hazırlanan dərilərin Hindistana ixrac edilməsində vasitəçi kimi çıxış edirdilər (5, 82-83). Qeyd etmək lazımdır ki, dəri yalnız xammal kimi deyil, həm də hazır məhsul şəklində də ixrac edilirdi. Təbrizdə hazırlanan və safyan adlandırılan ayaqqabılar bir çox ölkələrə olduğu kimi Hindistana da göndərilirdi (9, 109).

Azərbaycanın xaricə, o cümlədən də, Hindistana ixrac etdiyi mallar sırasında xalı-xalça məhsulları da əsaslı yer tuturdu. Təbrizdə, eləcə də, Azərbaycanın digər zonalarında istehsal olunan xalı və xalçalar dünya bazarlarında yüksək qiymətləndirilirdi. Avropa ilə bərabər bu məhsullar da Hindistana ixrac edilirdi.

Azərbaycandan Hindistana ixrac olunan məhsulların içərisində meyvələr də xüsusi yer tuturdu. Bir sıra mənbələrdə buna dair bəzi məlumatlar vardır. Məsələn, Moğol imperatoru Cahangir öz xatirələrində tacirlərin Səfəvilər dövlətindən Hindistana bəzi meyvələri gətirdiklərini qeyd edirdi. İmperator həmin meyvələrin içərisində narı xüsusi qeyd edirdi (7, 137).

XVI-XVII yüzilliklərdə Azərbaycandan ixrac olunan məhsulların içərisində qızılboya da xüsusi yer tuturdu. M.Heydərov qızılboyanın bir çox Azərbaycan, İran və Hindistan tacirlərinin əsas gəlir mənbəyini təşkil etdiyini müəyyən etmişdir (5, 78). XVII yüzilliyin ortalarında Səfəvilər dövlətində olmuş fransız taciri Tavernye Hindistandan Hörmüz limanına gələn gəmilərin geri qayıdarkən əsas yüklərini Azərbaycandan gətirilmiş qızılboyanın təşkil etdiyini yazırdı (13, 63).

Hindistana ixrac edilən mallar içərisində bütün bu qeyd edilənlərdən başqa, həm də tütün və tənbəki məhsulları, saxsı qab məmulatları, eləcə də, bir sıra digər məhsullar da vardı.

Yuxarıda qeyd edildiyi kimi Azərbaycanla Hindistan arasındakı ticarət əlaqələri qarşılıqlı olmuşdur. Yəni Azərbaycandan Hindistana bir çox məhsullar ixrac edildiyi

kimi, buradan da Azərbaycana xeyli sayda mallar gətirilirdi. Məlum olduğu kimi orta əsrlərdə Hindistan beynəlxalq ticarət dövriyyəsinə olduqca böyük sayda və müxtəlif növlərdə mallar çıxardırdı və şərqin digər ölkələri kimi Azərbaycanda da hind mallarına böyük ehtiyac duyulurdu.

Hindistandan qədimdən bəri burada istehsal olunan müxtəlif toxuculuq məmulatları ilə məşhur idi və təbii ki, ixracatının əsas hissəsini də məhz bu təşkil edirdi. XVI yüzillikdə Hindistandan İrana və Azərbaycana müxtəlif toxuculuq məmulatları gətirilirdi. Bunların içərisində əsas etibarilə Kəşmirdə istehsal edilən və qızıl ağırlığında qiymətləndirilən «tirmə» adlanan yun parçalar xüsusi yer tuturdu. Tirmədən başqa hind tacirləri Azərbaycana nazik pambıq parçalar, qızılı saplarla işlənmiş ipək parçalar da gətirirdilər. Azərbaycan əyanları Hindistandan gətirilmiş bahalı yun və ipək parçalardan istifadə edirdilər (1, 203; 3, 33). Həmçinin Hindistandan Azərbaycana və eləcə də, Yaxın Şərqin digər ölkələrinə ixrac olunan toxuculuq məmulatlarının içərisində böyük miqdarda müxtəlif növlü pambıq, kətan, ipək və yarımipək parçalar, habelə pərdələr də mühüm yer tuturdu.

Əlbəttə ki, Hindistanın ən çox ixrac etdiyi məhsul müxtəlif növ ədviyyatlar: istiot, darçın, hil, müxək, zəncəfil, müşk qozu olmuşdur. Azərbaycanda da ədviyyata böyük tələbat vardı. Hind tacirlərinin Azərbaycana gətirdikləri ədviyyatların müəyyən qismi ölkənin özünün daxili tələbatlarına sərf edilir, qalan hissəsi isə avropalı tacirlərə satılırdı. Azərbaycanlı tacirlər ədviyyatı hind tacirlərindən alaraq, baha qiymətə avropalılara satırdılar. Azərbaycan tacirləri bu işdən böyük qazanc əldə etdiklərinə görə avropalıların bilavasitə hind tacirləri ilə əlaqələrinin yaradılmasına mane olurdular.

XVI yüzillikdə Hind tacirlərinin Azərbaycanla ticarətlərində Ərəş şəhərinin mühüm yeri vardı. Belə ki, bir qədər yuxarıda həmin şəhərin xam ipək istehsalında və satışında oynadığı rol barəsində bəhs edilmişdir. Qeyd etmək lazımdır ki, XVI yüzilliyin ikinci yarısında Ərəşdə 8 yüzə yaxın dükan və xeyli karvansara vardı və bu şəhər bəhs olunan dövrdə ticarət cəhətincə Şamaxıdan üstün idi (3, 33; 1, 205). Çox güman ki, xam ipək almaq üçün Ərəşə gələn hind tacirləri özlərilə gətirdikləri məhsulları, əsasən də boyaq maddələrini və ədviyyatı burada sərfəli qiymətlərlə satırdılar. Belə ki, Ərəşə hind tacirlərindən başqa, avropalı tacirlər də gəlirdilər. Azərbaycanda olan ingilis tacir-səyyahları bəhs olunan dövrdə Ərəşdə ədviyyatın aşağıdakı qiymətlərlə satıldığını xəbər verirlər: istiot – batmanı 18 şahıdan (xırda pul olan şahı 6 pensə bərabər idi), böyük müşk qozları – batmanı 40-45, xırda müşk qozları – batmanı 16-18 şahı, mixək – batmanı 40 şahı, darçın – batmanı 40 şahı (1, 229; 3, 33).

Hindistanın Azərbaycana ixrac etdiyi məhsulların içərisində boyaq maddələri də xüsusi yer tuturdu. Bu bəhs olunan dövrdə Azərbaycanda boyaqçılıq, boya istehsalının yüksək dərəcədə inkişafı ilə bağlı idi. Bununla əlaqədar olaraq, Hindistandan bura bir sıra xammallar gətirilirdi. Məsələn, tünd sürməyi boyaq istehsal edilən indiqo adlı tropik bitki, yapon ağacı Azərbaycana Hindistandan ixrac olunurdu. Həmçinin Hindistandan rəngsazlıq malları da gətirilirdi (6, 220).

Hindistandan Azərbaycana ixrac olunan malların içərisində həmçinin metal məmulatları, mis və dəmir də xüsusi yer tuturdu. Doğrudur, Azərbaycanın özündə dəmir və eləcə də mis istehsal olunurdu. Lakin ibtidai texnikaya əsaslandığına görə səviyyəsi xeyli aşağı idi. Buna görə də, başqa ölkələrdən, o cümlədən də, Hindistandan metal məmulatlarının idxal edilməsi lazım gəlirdi. M.Heydərov Azərbaycana və qonşu ölkələrə hind ixracatının ən mühüm hissəsinini sənətkarlıq istehsalı sahələrinin mövcudluğu üçün son dərəcə lazım olan metalların təşkil etdiyini hesab edir (5, 88). «Xüsusilə də, Kəlküttədən gətirilən və tarix ədəbiyyatlarında səhvən «dəməşqi» adlandırılmış yüksək keyfiyyətli polad mühüm rol oynayırdı. Kəlküttədə iki qılınc hazırlamaq mümkün olan

belə poladın bir külçəsi 2-2,2 şahı dəyərində idi. İranda və Azərbaycanda isə hər külçə 4-5 abbası dəyərində olurdu» (5, 88).

Orta əsrlərdə Hindistan həm də özünün qiymətli metalları və daş-qaşları ilə məşhur idi. Azərbaycan da zərgərlik məmulatlarında istifadə etmək məqsədilə digər ölkələr kimi Hindistandan xeyli miqdarda müxtəlif qiymətli daş-qaş ixrac edirdi. Azərbaycana buradan almaz, yaqut, zümrüd, mirvari gətirilirdi (2, 242). Hindistandan ixrac olunan mallar içərisində müəyyən sənətkarlıq sahələrində istifadə edilən fil sümüyü də mühüm yer tuturdu.

Hindistandan həmçinin müxtəlif ətir və dərman məmulatları da ixrac edilirdi. Bütün bu saydıqlarımızdan əlavə Hindistan vasitəsilə Uzaq Şərqdən tranzit mallar da Azərbaycana gətirilirdi. Hindistandan gətirilən bütün mallar Azərbaycan şəhərlərinin bazarlarında uğurla satılırdı. Azərbaycan və İranın feodal əyanları hind ipək, yun, qızılı saplarla işlənmiş parçalarından, ümumiyyətlə, hind mallarından geniş istifadə edirdilər.

Azərbaycana gətirilən hind mallarının bir qismi ölkənin daxili tələbatını ödəyir, qalan hissəsi isə Qərbi Avropaya və Rusiyaya aparılırdı. Beləliklə, Hindistanla Azərbaycan arasındakı ticarət əlaqələri həm ölkənin daxili tələbatlarını ödəməyə, həm də tranzit ticarətdə istifadə edilirdi.

Hindistanla Azərbaycan arasındakı iqtisadi-ticarət əlaqələri araşdırılan zaman Təbriz şəhəri haqqında da danışmaq lazım gəlir. Belə ki, iki ölkə arasındakı ticarətdə bu məşhur Azərbaycan şəhərinin əhəmiyyəti böyük idi. «O zaman Təbriz karvan ticarətinin ən böyük mərkəzlərindən biri olmaqla idi. Asiya və Avropa ölkələrini birləşdirən başlıca karvan ticarət yolu Təbrizdən keçirdi» (9, 22). Təbriz şəhərinin ticarəti son dərəcə böyük idi və digər ölkələrin tacirlərini cəlb edirdi. Hind tacirləri də həmçinin Təbriz ticarətində fəal iştirak edirdilər. Bunu Şardenin verdiyi məlumatdan da görmək olar: «Təbriz ticarəti bütün İranda, Türkiyədə, Rusiyada, Türküstanda və Hindistanda, Qara dəniz sahili ölkələrdə geniş yayılmışdır» (12, cild II, 409). Hind tacirləri Təbrizdən əsasən Şirvandan və Gilandan buraya gətirilən xam ipəyin alıcıları idilər.

Mənbələrdə heç bir məlumata rast gəlinməsə də, çox güman ki, Hindistanda mövcud olan digər dövlətlər də iqtisadi səbəblərlə bağlı Səfəvilər dövlətinə öz nümayəndəliklərini göndərmişlər. Səfəvilər dövləti ilə onlar da iqtisadi əlaqələrə malik olmuşlar.

Beləliklə, XVI-XVII yüzilliklərdə Hindistanla Azərbaycan arasında mövcud olan iqtisadi-ticarət əlaqələri mühüm əhəmiyyət daşımışdır. Bu əlaqələr yalnız hər iki ölkənin mənafeyi baxımından deyil, həm də, beynəlxalq ticarət dövriyyəsi cəhətindən əhəmiyyətli idi. Belə ki, son orta əsrlər dövründə Hindistanla Azərbaycan arasındakı ticarət əlaqələri dünya ticarətinin mühüm bir hissəsini təşkil etmişdir. Qeyd etmək lazımdır ki, XVI yüzillikdə Hindistanla Azərbaycan arasındakı iqtisadi-ticarət əlaqələri bərabərhüquqlu səviyyədə idi və bu dövrdə hələ ki, hind ticarət kapitalı Azərbaycanda növbəti yüzillikdə olduğu kimi güclü mövqeyə malik deyildi. Lakin XVII yüzillikdə vəziyyət dəyişir. Bir sıra səbəblərlə əlaqədar olaraq Azərbaycanda hind tacirlərinin mövqeyi güclənməyə başlayır. Hindistanla ticarətdə Azərbaycan və eləcə də, İran getdikcə daha çox passiv mövqe tutmağa başlayır. Hind tacirlərinin Azərbaycanda fəaliyyətləri üçün daha geniş imkanlar yaranır. Bu isə bir çox istənilməyən nəticələrə gətirib çıxardır.

## *ƏDƏBİYYAT*

1. Английские путешественники в Московском государстве. Перевод Готье. М-Л.,1937,306 с.
2. Ашурбейли С.Б. «История города Баку», Б.: Азернешр, 1992, 408 с.

3. Ашурбейли С.Б. «Экономические и культурные связи Азербайджана с Индией в средние века», Б.: 1992, 128 с.
4. Бернье Ф. История последних политических переворотов в государстве Великого Могола. Пер. с французского Б.Жуковского и М.Томара. М-Л.: Соцэкгиз, 1936, 315 с.
5. Гейдаров М.Х. Торговля и торговые связи Азербайджана в позднем средневековье. Б.: Элм, 1999, 168 с.
6. История Ирана с древнейших времен до XYIII века. Л.: Изд-во ЛГУ, 1958, 390 с.
7. Memories of Jahangir/Transl. by A.Rocers and H.Beveridge. Vol. II, London, 1914, p. 294 s.
8. Musayev T. Azərbaycanla Hindistanın bəzi əlaqələri. B.: Azərnəşr, 1960, 52 s.
9. Onullahi S. XIII-XYIII əsrlər Təbriz şəhərinin tarixi, B.: Elm, 1982, 279 s.
10.Павлова И.К. Хроника времен Сефевидов (Сочинения Мухаммедда Масума Исфахани «Хуласат ас-сияр»). М.: Наука, 1993, 120 с.
11.Русско-индийские отношение в XVII в. Сб. документов. М.: Наука, 1956, 656 с.
12.Şarden J. Səyahətnameyi-Şarden. / Məhəmməd Abbasinin fransız dilindən fars dilinə tərcüməsi. I-IV cildlər. Tehran, Enteşarate Əmir-Kəbir, 1336/1957
13.Tavernye J.B. Səfərnameyi Tavernye. / Əbu Turab Nurinin fars dilinə tərcüməsi. İsfəhan, çapxane-ye fərvin, 1336/1957, 719s.
14.Эвлия Челеби. Книга путешествия. Ч. 3. М.: 1961, 432 с.
15.Ян Стрейс. Три путешествие. Пер. Э. Бородиной, М.: Соцэкгиз, 1935, 415 с.

## ОБ ЭКОНОМИЧЕСКИ-ТОРГОВЫХ СВЯЗЯХ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ИНДИЕЙ В XVI-XVII ВЕКАХ.

В данной статье исследуются экономически-торговые взаимосвязи Азербайджана с Индией в XVI-XVII веках. В статье на основании многочисленных источников выявлены продукты, которые отправлялись в исследуемый период из Азербайджана в Индию и продукты привезенные оттуда. Сырой шелк, нефть, лошади, разные кожевенные изделия, ковровые изделии, фрукты занимали особое место среди вывозимой продукции из Азербайджана в Индию. Из Индии привозились в основном пряности, текстильние изделии, металлы и др.

## ABOUT ECONOMICALLY-COMMERCIAL RELATIONS BETWEEN AZERBAIJAN AND INDIA IN XVI-XVII CENTURIES.

In given article economically-trading interrelations of Azerbaijan with India are investigated in XVI-XVII centuries. In article on the basis of numerous sources products which went to the investigated period from Azerbaijan to India and products brought therefrom are revealed. Crude silk, oil, the horses, different tanning products, fruit took a special place among taken out production from Azerbaijan to India. From India spices, textile a product, metals were brought basically, etc.

***Rəyçilər: t.e.d.H.H.Sadıqov, t.e.d.Q.Ə.Əliyev.***
***Gəncə Dövlət Universiteti Ümumi tarix kafedrasının 24 fevral 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №02).***